

# Görüləsi işlər çoxdur

*Azərbaycan Respublikasının cənub-şərqində qərar tutmuş Lerik ən iri rayonlarımızdan biridir. 1084 kvadrat kilometr ərazisi, 70 minə yaxın əhalisi olan bu diyar zəngin təbiəti, sərin sulu bulaqları, yaşıl örtüklü meşələri, olduqca qiymətli bitkiləri ilə buraya gələn insanların diqqətini özünə cəlb etmiş, onlar təkrar-təkrar bu yerləri ziyarət etməkdən doymamışlar.*

Lerik rayonu təkcə ölkəmizdə deyil, bütün dünyada uzunömürlülər məskəni kimi tanınmışdır. Lerik həm də qüdrətli alimləri, böyük ziyalı potensialı ilə seçilir. Hər yerdə olduğu kimi, burada da insanların mənəvi cəhətdən zənginləşməsində, hərtərəfli bilik əldə etməsində mədəniyyət müəssisələrinin, xüsusən kitabxanaların böyük rolu vardır.

Bu yaxınlarda Lerikdə olduq, rayon MKS-nin direktoru Tərxan Feyziyevlə görüşdük. 1980-ci ildə BDU-nun kitabxanaçılıq fakültəsini bitirən T.Fərzəliyev həmin ildən MKS-nə rəhbərlik edir. Bizimlə söhbət zamanı o dedi:

– Lerik rayon MKS 1980-ci ildə təşkil olunmuş və özündə 70 kənd kitabxanasını, rayon gənclər kitabxanasını, şəhər kitabxanasını, mərkəzi kitabxana və uşaq kitabxanasını birləşdirir. Bu müəssisələrdə çalışanlardan 7 nəfəri ali təhsilli, 8 nəfəri orta ixtisas təhsilli, 10 nəfəri qeyri-orta ixtisas təhsilli, 73 nəfəri isə orta təhsillidir. Rayon üzrə 324 min nüsxə kitab vardır. Kitabxanaların xidmətindən 23,5 min nəfər oxucu istifadə edir. Kitabxana sistemində çalışanlar arasında bacarıqlı, işgüzar işçilər çoxdur. Ağa Mirzəyev, Qərənfil Vəlimməmmədova, Vəsilə Rzayeva, Xoşavaz Feyziyeva belələrindəndir. Ömrünün 50 ilini kitab təbliğinə, biliklərin yayılmasına həsr edən Günəşli (Azərbaycan) kənd kitabxanasının müdiri Ağas Mirzəyevin qabaqcıl təcrübəsi hamıya nümunədir. Yaxşı işi ilə kənd zəhmətkeşlərinin hörmətini qazanmış A.Mirzəyev kitab təbliğindən xüsusi zövq alır, başqalarını da həmin sahə üzrə məlumatlandırmağa çalışır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə bağlı nəşr olunan kitablardan son illərdə 50 min nüsxə Lerik rayon MKS-nə göndərilmişdir. Cari ildə iyulun 1-nə kimi prezident sərəncamı ilə nəşr olunan kitablardan və digər mənbələrdən 6260 nüsxə kitab MKS-ə daxil olmuşdur. Alınmış kitablar kitabxanaçılıq texnikasına uyğun olaraq MKS-in kitabkomplektləşdirmə və kitabişləmə şöbələrində işlənərək vaxtında ünvanlara çatdırılır.

Rayon mərkəzi və uşaq kitabxanalarının dövlət mətbuatına abunə yazılmasında əvvəlki dövrlərlə müqayisədə son illər xeyli irəliləyiş əldə olunmuşdur. Bu da kitabxanalarda oxucuların sayının çoxalmasına səbəb olmuşdur. Lakin kənd kitabxanalarının əksəriyyəti vəsait azlığından mətbuata abunə ola bilmir.

Rayon mərkəzi kitabxanasına Eyzəngül İlayeva rəhbərlik edir. Kitabxananın 750 nəfər oxucusu vardır. Son aylarda şəhid Ülvi Bünyadzadənin "Sənin oxşarın bənövşədi", şair Vaqif Bəhmənlinin "Əsərləri"nin (I, II, III cildlər) müzakirələri keçirilmişdir.

Söhbət zamanı mərkəzi kitabxananın direktoru bildirdi:

– Kitabxana son vaxtlarda yeni inventar və avadanlıqlar, yazı stolu və kitab rəfləri almışdır. Latın qrafikasında nəşr olunmuş bədii nümunələrin kitabxanaya verilməsi nəticəsində gənc oxucularımızın sayı xeli artmışdır. Kitabxanamızın xidmətindən ən çox Astara Pedaqoji Texnikumunun Lerik filialının tələbələri istifadə edirlər. Bilik ocağında həyata keçirilən tədbirlərdə tələbələr fəallıq göstərirlər. Kitabxanada "Ulu öndər Heydər Əliyev" və "Azərbaycan ədəbiyyatının klassikləri" guşələri yaradılmışdır.

Rayon uşaq kitabxanası ən çox məktəblilərə xidmət göstərir. Azyaşlı oxucuların tələbatını ödəmək üçün 2007-ci ilə abunə yazılışı yaxşı təşkil olunmuşdur. Burada vaxtaşırı olaraq F.Köçərli adına Respublika Uşaq Kitabxanasının buraxdığı "Körpəm" eksperimental jurnalının növbəti nömrələrinin müzakirələri keçirilir. Yay tətili günlərində balaca oxucular buraya gəlir, onlar lazım olan ədəbiyyatı alıb mütaliə edirlər. Hazırda bilik ocağının 650 nəfər daimi oxucusu vardır. Kitabxanada yeni alınmış ədəbiyyatın sərgisi təşkil olunmuşdur.

Qeyd olunanlarla yanaşı Lerik rayon MKS-də çalışanlar qarşısında daha mühüm vəzifələr durur. İlk növbədə bu sistemdə işləyən 73 nəfər orta təhsillinin ixtisas təhsili almasına diqqət artırılmalıdır. Çünki ixtisas təhsili olmayan işçidən yüksək iş keyfiyyəti gözləmək imkan xaricindədir. İstər mərkəzi kitabxana, istərsə də uşaq kitabxanası rəhbərlərinin aylıq iş planları ilə tanışlıq göstərdi ki, cari ildə yubileyləri qeyd olunan M.Seyidzadə, M.Rahim, A.İldırım, M.Şamxalov, V.Babanlı və digər sənətkarların yaradıcılıqlarının təbliği ilə bağlı bu müəssisələrdə heç bir iş nəzərdə tutulmamışdır. Xalqın maariflənidirilməsi kimi çox mühüm və məsul bir işi öhdələrinə götürmüş kitab təbliğçiləri daha səylə işləməli, dövlətin onların qarşısında qoyduğu vəzifələri layiqincə yerinə yetirməyə çalışmalıdırlar.

**B.ASLANOV**